İPƏK YOLU, No.4, 2025, səh.171-175
https://doi.org/10.30546/SI.2025.4.6.545

# GERÇƏKLİYİN ESTETİKASINDA ELMİ VƏ DİNİ DİSKURS: "MƏLƏKLƏR VƏ İBLİSLƏR" ROMANININ SOSİAL GERÇƏKLİK KONTEKSTİNDƏ TƏHLİLİ

**Yeqzar Cəfərli**

Xəzər Universiteti, Bakı, Azərbaycan
e-mail: yeqzar.jafarli@khazar.org

**Xülasə.** Məqalədə Den Braunun "Mələklər və İblislər" romanı sosial gerçəklik kontekstində analiz edilir. Əsas məqsəd, əsərdə təqdim olunan elmi və dini diskursların qarşılıqlı təsirini və bunların estetik ifadəsini araşdırmaqdır. Məqalədə sosial gerçəklik nəzəriyyəsi (Berger və Lukman), diskurs nəzəriyyəsi (Fuko) və postmodern gerçəklik konsepsiyası (Bodliyar) əsasında romanın çoxqatlı bədii strukturu təhlil edilmişdir. Braun əsərində elmi və dini biliklər arasındakı qarşıdurmanı yalnız süjet səviyyəsində deyil, həm də dərin fəlsəfi və ideoloji kontekstdə təqdim edir. Nəticə olaraq, "Mələklər və İblislər" romanı çağdaş amerikan ədəbiyyatında sosial gerçəkliyin bədii ifadəsinin zəngin və çoxşaxəli bir nümunəsi kimi təqdim olunur.

**Açar sözlər:** Den Braun, "Mələklər və İblislər", sosial gerçəklik, elmi və dini diskurs.

## SCIENTIFIC AND RELIGIOUS DISCOURSE IN THE AESTHETICS OF REALITY: ANALYSIS OF THE NOVEL "ANGELS AND DEMONS" IN THE CONTEXT OF SOCIAL REALITY

**Yegzar Jafarli**
*Khazar University, Baku, Azerbaijan*

**Abstract.** This article analyzes Dan Brown's novel "Angels and Demons" in the context of social reality. The main goal is to examine the interaction of scientific and religious discourses presented in the work and its aesthetic expression. The article analyzes the multilayered artistic structure of the novel based on the theory of social reality (Berger and Luckmann), discourse theory (Foucault) and the concept of postmodern reality (Baudrillard). In Brown's work, the tension between scientific and religious knowledge is presented not only at the plot level, but also in a deep philosophical and ideological context. As a result, the novel "Angels and Demons" is presented as a rich and multifaceted example of the artistic representation of social reality in contemporary American literature.
**Keywords:** Dan Brown, "Angels and Demons", social reality, scientific and religious discourse.

## НАУЧНЫЙ И РЕЛИГИОЗНЫЙ ДИСКУРС В ЭСТЕТИЧЕСКОЙ РЕАЛЬНОСТИ: АНАЛИЗ РОМАНА "АНГЕЛЫ И ДЕМОНЫ" В КОНТЕКСТЕ СОЦИАЛЬНОЙ РЕАЛЬНОСТИ

**Егзар Джафарли**
*Университет Хазар, Баку, Азербайджан*

**Резюме.** В статье анализируется роман Дэна Брауна "Ангелы и демоны" в контексте социальной реальности. Основная цель – рассмотреть взаимодействие представленных в произведении научного и религиозного дискурсов и его эстетическое выражение. В статье анализируется многослойная художественная структура романа, основанная на теории социальной реальности (Бергер и Лукман), теории дискурса (Фуко) и концепции постмодернистской реальности (Бодрийяр). В произведении Брауна противоречие между научным и религиозным знанием представлено не только на уровне сюжета, но и в глубоком философско-идеологическом контексте. В результате роман "Ангелы и демоны" предстаёт как богатый и многогранный пример художественного воплощения социальной реальности в современной американской литературе.
**Ключевые слова:** Дэн Браун, "Ангелы и Демоны", социальная реальность, научный и религиозный дискурс.

## 1. Giriş

XXI əsrin əvvəllərinə kimi bədii mətnlərin funksiyası daha çox onların estetik istiqaməti ilə ölçülürdü. Sonrakı dövrdə isə bədii mətnlərin funksionallığı genişləndi. Onlar, həmçinin gerçəklik haqqında fərqli dünyagörüşü sistemlərinin qarşı-qarşıya gəldiyi diskursiv məkanlara çevrildi [2]. Bu tendensiya sonrakı dövrlərdə dinamikasını bir az da artırdı. Hazırkı dövrdə çağdaş amerikan ədəbiyyatı nümayəndələri, o cümlədən Den Braun gerçəklik konseptinin fərqli yönlərini modelləşdirərək oxucuya təqdim edir [3]. Den Braun roman yazıçısı kimi, həm də populyar mədəniyyətin, elmi və intellektual sferanın sərhədlərini aşaraq, dini miflər, tarixi faktlar və elmi bilikləri postmodern poetika vasitəsilə sintez edir [1].

Den Braunun "Mələklər və iblislər" romanı gerçəklik qavramının sosial təmayüllərini araşdırmaq baxımından xüsusi önəm kəsb edir. Romanda CERN-də işləyən alimlərlə Vatikan arasında baş verən hadisələr, eləcə də, elmi və dini diskursların qarşıdurması fonunda gerçəklik anlayışı bədii şəkildə yenidən qurulur [4]. Bu qarşıdurma müxtəlif ideologiyaların simvolik mübarizəsi görüntüsünü yaratsa da, eyni zamanda fərqli sosial konstruksiya və dünyagörüşlərinin qarşı-qarşı gəlməsi kimi yozula bilər. Elmi rasionalizmlə dini metafizikanın toqquşduğu çağdaş dövrdə sosial gerçəkliyin problematikası və şərhi zəruri xarakter daşıyır.

Sosial gerçəklik cəmiyyətin vahid düşüncəsini əks etdirir. Çoxluğun fikri bəzən ədalətli olmasa da, hər zaman həqiqəti əks etdirir. Sosial gerçəkliyin bədii ifadə nöqtəsi olaraq ədəbiyyat tarix boyu fərqli düşüncə və dünyagörüşü sistemlərinin təsiri ilə dəyişsə də, çox zaman həqiqəti əks etdirmişdir. Gündəlik olaraq çoxsaylı informasiya axınına məruz qalmağımıza baxmayaraq, bu sosial bilgilərin heç də hamısı bizim üçün ciddi məna ifadə etmir. Çünki düşüncəmizi inkişaf etdirən, bizi irəli aparan əsas bilgilər ədəbiyyatdan gəlir. *"Ədəbiyyat bir çox anlayışlı adamın həyatında önəmli rol oynayır. Evdə, məktəbdə, dostlarımızdan, daha savadlı və intellektual adamlardan bir çox şey öyrənirik. Amma bildiyimiz ən qiymətli şeylərin bir çoxu, oxuduğumuz ədəbiyyatdan gəlir"* [5, s.13]. Sosial gerçəklik, toplumun fərdlər və institutlar, qurumlar tərəfindən qarşılıqlı şəkildə formalaşdırdığı obyektivləşdirilmiş dünyadır. Berger və Lukmana görə, insan ilk olaraq gerçəkliyi obyektiv reallıq kimi qəbul edir. Daha sonra gerçəkliyi subyektiv qəlibə salaraq fərdi şüur səviyyəsinə çatdırır [2]. Den Braunun bədii mətnlərində bu problematik gedişat həm elmi, həm də dini baxış bucaqlarında müşahidə olunur.

Romanın bədii quruluşunu ehtiva edən iki sistemin toqquşması xətti bir qarşıdurmadan daha artıq funksiya daşıyır. Vatikan - qəlibləşmiş, müəyyən dini və ənənəvi statusu olan, eləcə də metafizik bilgilərin simvolu mahiyyətindədir. Sabit, dəyişməz və müqəddəs statusu onun gerçəkliyə olan baxışını müəyyən etməyə kifayət edir. CERN isə əksinə dəyişkənlik, sübuta meyilli və maddi baxışlara əsaslanan bir gerçəklik modeli təklif və təqdim edir [4]. Den Braun bu qarşıdurmanı "qəti həqiqət" bağlamında deyil, sosial konstruksiyalı reallıqların simvolik mübarizəsi şəklində önə çıxarır.

Romanın əsas simvolik elementlərinin hər biri gerçəkliyin fərqli yönlərinə işıq salaraq oxucunu həm tarixi, həm rasional, həm də mifik baxımdan suallarla üz-üzə qoyur. Bu cəhətdən

roman təkcə estetik olaraq, fəlsəfi olaraq da çoxsəslidir. Mövcud çoxsəslilik romanı detektiv statusdan çıxararaq, onun strukturunu postmodernizmin estetik elementləri ilə zənginləşdirir [1]. Təbii ki, romanı postmodern mətn kimi təqdim etmək qüsurludur. Çünki burada "yenidən" yazılan bir mətn yoxdur, hadisə və ideya var. Bununla belə, müəllifin romanda istifadə etdiyi postmodern gedişlərin sosial gerçəkliyin konseptual mənzərəsini formalaşdırmaq baxımından uğurlu olduğu qeyd edilməlidir.

Elmi və dini diskurs anlayışları bəşəriyyətin reallığa olan fərqli baxış və anlam statuslarını təmsil edir. Elmi diskurs sübut əsaslı, rasional və məntiqi təfəkkür ehtiva edən bilgilər sistemidir. Dini diskurs isə fərziyyə yönümlü, irrasional, iman və vəhy kimi müqəddəs qaynaqlara əsaslanan metafizik statuslu mexanizmdir. Mişel Fukonun diskurs nəzəriyyəsinə görə [4] bütün diskurslar güc strukturudur. Onları müəyyən ideoloji məqsədlər formalaşdırır. "Mələklər və iblislər" romanında da sözügedən diskurslar üzvi münasibətdədir.

Digər ədəbi cərəyanlarda olduğu kimi postmodernizmdə də gerçəkliyə münasibət birmənalı deyil. Belə ki, burada da gerçəklik konstruktiv, subyektivliyə əsaslanan bir düşüncə biçimi kimi önə çəkilir [1]. Den Braun bu tendensiyanı öz romanlarına qaynaq edərək tarix, din, elm kimi anlayışları vahid qəlibə salır.

"Mələklər və iblislər" romanında sosial gerçəklik dekor səciyyəsi daşımır. O, həm də romanın konstruksiyasının əsas elementidir. CERN və Vatikanın fərqli diskurs sahələri kimi təqdimatı kompleks bir reallıq modeli [2] yaradır. Bu sosial təsisatlar, Fukonun güc və bilik konseptləri bağlamında təkcə fiziki məkan yox, eləcə də ideoloji əsaslıdır [4].

Leonardo Vertanın antimaddə ilə bağlı apardığı araşdırma, təkcə texnoyenilik deyil, həmçinin müəyyən bir sosial təhlükə xarakteri daşıyır. Braunun bu yanaşması, elmin belə zərərli ola biləcəyi görüntüsünü yaradır. Den Braun romanda elm və dini üz-üzə qoysa da, loyallığını qoruyur. Bu onun statiklikdən daha çox, dinamikliyə meyilli olduğunu göstərir.

Əks qütbdəki Vatikan təkcə Den Braunun tənqid hədəfində deyil. Müəllif hər iki tərəfi sosial gerçəklik konseptində analizə cəlb edərək həqiqət axtarışına çıxır. Minilliklər boyu formalaşmış və dəyişməsi uyğun görülməyən reallıqlar Vatikanı adi bir məkan olmaq statusundan çıxarır, ona müqəddəs və toxunulmaz don geyindirir. Belə olduqda, Vatikanın ideoloji manipulyasiya mərkəzi olmaq ehtimalı güclənir. "*Qalileyin dövründə illüminatlar Vatikandan ehtiyat etməli idilər, ona görə də onlar toplantılarını supergizli yerdə keçirirdilər. İllüminatlar həmin yeri Nur Məbədi adlandırırdılar"* [3, s.268].

Yazıçı elmi və dini diskursların daxilindəki ziddiyyət və qeyri-müəyyənlikləri göstərərək oxucunu yenidən araşdırmaya sövq edir. Bu isə ədəbiyyatın məqsədindən kənar bir mövqedir. Lakin çağdaş dövrün reallıqları nəzərə alındığı zaman, ədəbiyyatın belə funksiyaya qucaq açması təəccüb doğurmur. Nəzərə alınmalıdır ki, romandakı tərəflərdən heç biri ideal deyil. Hər iki qurumun həm yaradıcı, həm də dağıdıcı petensialı var [4]. Bu, sosial gerçəkliyin çoxqatlı və ideoloji yükümlülüyünün bədii ifadəsidir.

Romanın bədii quruluşu da elmi və dini diskursların qarşılaşması fonunda sosial gerçəkliyin modelləşdirilməsinə hesablanıb. Hadisələrin dinamikası real tarixi məkanlar və

simvolların müşayiəti ilə inikas edir. Xüsusən, Vatikan arxivləri ilə bağlı detallı informasiya axını sosial gerçəkliyin modernizasiyası baxımından diqqəti cəlb etməyə bilməz. *"Qədim arxivçilər, demək olar heç vaxt kataloq tərtib etmirdilər, çünki müəlliflərin bir çoxunun adı məlum deyildi. Kitabları adlarına görə sahmana salmaq da olmazdı, belə ki, onların bir çoxunun adı yox idi, bəziləri isə yalnız perqamentin ayrı-ayrı parçalarından ibarət idi. Ona görə də kataloqların əksər hissəsi xronoloji qaydada aparılırdı. Lakin Vatikanın biblioqrafları oxşayır, heç xronologiyaya da riayət etmirdilər"* [3, s.291].

Müəllif hər iki sistemin təmsilçilərinin - alimlər və din xadimlərinin nüfuzunu qorumaqda maraqlı deyil. Əsas məqsəd oxucuları elmi və dini diskursların açılımına sövq etmək, onları əyləndirməkdir. Belə bir əyləncənin estetik səciyyə daşıması labüddür. Çünki müəllif oxucunu təkcə infomasiya axınına məruz qoymur, onları mövcud məlumatları emal prosesinə də cəlb edir.

Antimaddə elmi diskursun simvolik qanadı kimi diqqəti cəlb etsə də, o təkcə yüksək nailiyyəti olan kəşf deyil, həm də dağıdıcı gücə malikdir. Bu müəyyən mənada bilik və güc arasındakı əlaqəyə işarədir. Bu mənada Fukonun "Bilik gücdür" tezisi müəllifin konstruktiv təşəbbüsü ilə [4] romana montaj edilir. Braun göstərdi ki, bilik neytral ola bilməz, onun siyasi və sosial nəticələri də var. Dini diskurs anlayışı isə romanda təkcə inanc və mənəviyyat mexanizmi kimi yox, həm də ideoloji vasitə kimi təqdim olunur.

Romanın diqqətçəkən yönlərindən biri də odur ki, Braun roman boyu sözügedən mübarizəni birxətli şəkildə önə çəkmir, bəzən onları birləşdirməyə də cəhd edir. Bu təşəbbüsün cəhd səviyyəsində qalması bir yandan sosial gerçəkliyin tələbidirsə, digər yandan da müəllifin oxucuya verdiyi mükafatdır. Müəllif Robert Lənqdon vasitəsilə elmi və dini diskursların arasında körpü yaradır. Lənqdonun intellekti, simvollar üzrə peşəkar bilgiləri romanın detektiv xəttini estetik sosial gerçəklik mahiyyəti səviyyəsində yüksəldir. Belə ki, biliyin sadəcə faktik olmadığı, eləcə də elmi və dini dikskursların kəsişdiyi yerdə yaranan yeni məna daşıması [1] gerçəkliyi aktuallığı qoruyur.

Den Braunun elmi və dini diksurları birləşdirmək cəhdləri oxucunu bu əks qütblər arasında seçim etməyə deyil, həm də onları anlayıb izah etməyə, beləcə sosial gerçəkliyin mahiyyətindəki məqsəd və prosesləri izləməyə imkan verir. Bu yanaşma həm postmodernizmin estetikasına, həm də çağdaş dövrün sosial tələblərinə tamamilə uyğun gəlir.

Braunun bilik və inam anlayışlarını birləşdirmək cəhdləri, postmodern düşüncə sisteminin dinamik və kompleks bir balans yaratma təşəbbüsünün uğurlu tətbiqidir. Postmodernizmin əsas tezislərindən biri olan "həqiqətin nisbiləşməsi" fikri əsərin əsas estetik prinsiplərindən birinə çevrilir. Bu, yalnız mövzu və ideya səviyyəsində deyil, həm də romanın strukturunda - zamanın və məkanın qeyri-xətti təqdimində, personajların çoxsəsliliyində və diskursların paralel inkişafında özünü göstərir.

Əsərin uğurlu tərəflərindən biri də budur ki, elmi və dini diskurslar oxucuda təkcə müqayisə etmək refleksi formalaşdırmır; əksinə hər iki bilgi sisteminin insanın dünyagörüşündə

və təcrübəsində oynadığı rolun ziddiyyət və tamamlama mexanizmlərinə işıq salır [2]. Elmin cavab verməkdə çətinlik çəkdiyi suallar inanc sahəsinə keçir, dinin çətinlik çəkiyi nöqtələrdə isə elm önə çıxır.

Təbii ki, bu yanaşma postmodern estetikanın tərkib hissələrindən biridir: bilik sistemləri arasında sərhədlər daim dəyişir [1]. “Mələklər və iblislər” romanı postmodern roman olmasa, postmodernist estetikanın bir çox qatlarının müşayiət olunduğu intellektual bədii mətn statusundadır. Xüsusilə, Robert Lənqdonun romanda elmi və dini diskurs keçidlərinin daşıyıcısı kimi funksiyası sözügedən əks qütblərin birləşə biləcəyəyinə rasional inam formalaşdırır.

Braun roman boyu sosial gerçəklik anlayışını dinamik proses kimi təqdim etməyə çalışır. Nəticədə, romandakı məlumatlar fərdi şüur izləri olmaqdan çıxır, obyektiv sosial status qazanır. Belə olduqda, insanlar cəmiyyətin daha yaxşı hala gətirilə biləcəyinə inanırlar. Den Braun gerçəkliklə mif arasındakı əlaqəni araşdırmaqla xaosun, eləcə də həqiqətin nisbiləşməsinin köklərindəki səbəblərə parlaq işıq salır.

**Nəticə.** “Mələklər və iblislər” romanı çağdaş ədəbiyyatda gerçəklik anlayışının analizi baxımından önəmli bir nümunədir. Roman elmi və dini diskursları sosial gerçəkliyin sütunları kimi analiz etməklə sosial, fəlsəfi və estetik təmayüllərin uğurlu kombinasiyasını yaradır. Müəllif elmi və dini diskurların arasında sərhədlərin dəyişkənliyini və qarşılıqlı təsirlərini çağdaş dövrün gerçəklik düşüncəsinin əsas özəllikləri kimi təqdim edir. Nəticədə, roman sosial gerçəkliyin səbəb-nəticə, məkan-zaman, elm-din, eləcə də nəzəri və diskursiv yönlərinin bədii əski kimi önəm kəsb edir. Oxucuya gerçəkliklə bağlı yeni perspektivlər açır.

## Ədəbiyyat

1. Baudrillard J. (1994), Simulacra and Simulation. Translated by S.F. Glaser, University of Michigan Press.
2. Berger P.L., Luckmann T. (1966), The Social Construction of Reality: A Treatise in the Sociology of Knowledge. Anchor Books.
3. Braun D. (2000), Angels & Demons. Pocket Books.
4. Foucault M. (1972), The Archaeology of Knowledge. Translated by A.M. Sheridan Smith, Pantheon Books.
5. Sutherland J. (2021), Edebiyatın Kısa Tarihi. Çeviren: Tufar Göbekçin, ALFA Yayınları.